# Veb proqramlaşdırma yarışının təltifetmə mərasimi

İyulun 13-də “WorldSkills Azerbaijan” platformasının təşkilatçılığı ilə ölkə səviyyəsində keçirilən veb proqramlaşdırma üzrə yarışın bağlanış və təltifetmə mərasimi keçirilib.

Mərasimdə qonaqlara veb proqramlaşdırma yarışı və ümumilikdə “WorldSkills Azerbaijan” platforması haqqında məlumat verilib.

Daha sonra Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Pərviz Yusifov, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə və “Microsoft Azerbaijan” şirkətinin təhsil proqramları üzrə meneceri Emin Axundovun iştirakı ilə “Təhsilin rəqəmsallaşması: Perspektivdə nə var?” mövzusunda panel müzakirə keçirilib. Çıxışçılar XXI əsrdə rəqəmsallaşmanın təhsilin ayrılmaz hissəsinə çevrildiyini və bu prosesin ölkəmizdə də təhsilin bütün sahələrində müşahidə edildiyini vurğulayıblar.

Tədbirin sonunda təhsil nazirinin müavini İdris İsayev yarışın qaliblərini mükafatlandırıb və onlara qiymətli hədiyyələr təqdim edib.




Qeyd edək ki, Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin tərəfdaşlığı, “ATL Tech”, “ATL Academy” şirkətlərinin sponsorluğu, “AzEdu-Net” və Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin təşkilati dəstəyi ilə baş tutan veb proqramlaşdırma yarışı ölkəmizdə “WorldSkills” modelinə uyğun keçirilən ilk yarışdır. Yarışın qalibləri dünyanın ən nüfuzlu bacarıq olimpiadasında iştirak və Azərbaycanı beynəlxalq müstəvidə təmsil etmək imkanı qazanacaqlar.

“WorldSkills Azerbaijan” peşəkarlığın və bacarıqların inkişafı üçün milli bir platformadır. Azərbaycan ötən ilin oktyabr ayında peşə bacarıqlarını beynəlxalq səviyyədə təbliğ edən “WorldSkills” hərəkatına qoşulub. Dünyada müxtəlif bacarıq istiqamətləri üzrə olimpiya yarışlarının təşkilatçısı kimi tanınan “WorldSkills” hərəkatı əmək bazarının tələblərinə və qlobal standartlara uyğun peşəkarlar yetişdirmək, həmin standartları təhsil sisteminə inteqrasiya etmək imkanı yaradır.

# MDU-nun bir qrup əməkdaşı Zəyəm Texnologiyalar Parkını ziyarət edib



Mingəçevir Dövlət Universitetinin (MDU) və Mingəçevir Peşə Məktəbinin bir qrup akademik, inzibati və tələbə heyəti üzvü Şəmkir şəhərində yerləşən “Zəyəm Texnologiyalar Parkı” ASC-də (ZTP) infoturda olub.

İnfotur zamanı ziyarətçilər, “Azmade Group” MMC-yə daxil olan ZTP-də emal, yığım və torna sexlərinin iş prosesləri, müasir texnoloji avadanlıqları və onlardan istifadə qaydaları ilə yaxından tanış olub, ağır sənaye, inşaat, neft və qaz sənayesi, aqrar-sənaye və kənd təsərrüfatı aqreqatlarının istehsal mərhələlərini müşahidə ediblər. Mühəndis-texnoloqların müşayəti ilə keçirilən infotur metal qurğu və metal məhsullar, pres qəliblər və dişli çarxlar istehsal olunan bölmələrdə davam etdirilib.

Sonra, infotur çərçivəsində “dəyirmi masa” keçirilib.

Təhsil və biznes təmsilçiləri ilə bir arada olmaqdan məmnunluğunu ifadə edən ZTP-nin baş direktoru Elxan Hacıyev rəhbərlik etdiyi texnoparkın missiyası, fəaliyyəti və inkişaf konsepsiyası haqqında ətraflı məlumat verib. İstehsalatda tətbiq edilən modern texnologiyalardan və mühəndis-texnoloq yanaşmasından bəhs edən E.Hacıyev bu sahədə müasir bilik və bacarıqlara sahib kadrlara böyük ehtiyac duyulduğunu vurğulayıb.

Səmimi görüşə və yüksək təşkilatçılığa görə ZTP rəhbərliyinə təşəkkür edən MDU-nun rektoru Şahin Bayramov yeni dövrün ali təhsil müəssisəsinə çevrilməyi hədəfləyən universitetdə sənaye ilə əlaqələrin inkişafına xüsusi önəm verildiyini deyib. MDU-da müasir dövrün çağırışlarına və əmək bazarının dinamik dəyişən tələblərinə uyğun yüksəkixtisaslı kadrların hazırlanması, nəticəyönümlü və səmərəli tətbiqi tədqiqatların yerinə yetirilməsi perspektivlərindən söhbət açan Ş.Bayramov sənaye və texnologiya parkları ilə əməkdaşlığın önəmini diqqətə çatdırıb.

Təhsil müəssisələri ilə əlaqələrin əhəmiyyətini vurğulayan “AZMADE Group” MMC-nin direktor müavini Aydın Əliyev qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığa daim açıq olduqlarını bildirib və belə formatda görüşlərin davamlı surətdə keçirilməsini arzulayıb.

Universitet, peşə məktəbi və sənaye arasında yeni yaradılmış üçtərəfli əməkdaşlıq formatında təmsil olunmaqdan məmnunluğunu bildirən Mingəçevir Peşə Məktəbinin direktoru İlham İlyasov sözügedən işbirliyinin məqsəd və vəzifələrindən, birgə fəaliyyətin üstünlükləri və qarşılıqlı faydalarından danışıb.

“Dəyirmi masa” qarşılıqlı maraq kəsb edən bir sıra məsələlərin və potensial əməkdaşlıq istiqamətlərinin geniş müzakirəsi ilə yekunlaşıb.

Qeyd edək ki, MDU, Mingəçevir Peşə Məktəbi və “Azmade Group” MMC şirkəti arasında üçtərəfli əməkdaşlığın əsası cari ilin 10 iyun tarixində tərəflər arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə qoyulub. Regional ekosistemin mühüm aktorlarından birinə çevrilməyi hədəfləyən MDU-da kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, tədrisin məzmununun təkmilləşdirilməsi və nəticəyönümlü tədqiqatların səmərəliliyinin artırılması məqsədilə müxtəlif formatlı təhsil-sənaye əməkdaşlığının inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verilir.

# “Müasir dövrün informasiya cəmiyyətinin problemləri”

## ADPU-nun Quba filialının təşkilatçılığı ilə elmi-praktik konfrans keçirilib




İyulun 13-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialının təşkilatçılığı ilə dünya şöhrətli alim, süni intellekt sahəsinin dahi yaradıcılarından biri, professor Lütfi Zadənin anadan olmasının 100 illiyinə həsr olunmuş “Müasir dövrün informasiya cəmiyyətinin problemləri” mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransda filialın direktoru, dosent Yusif Alıyev, professor, müəllim, doktorant və tələbə heyəti, millət vəkili, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, professor Hikmət Babaoğlu, “Məktəb guşəsi” jurnalının baş redaktoru Məzahir Məmmədli, “Azərbaycan müəllimi” qəzetinin şöbə redaktoru Oruc Mustafayev iştirak ediblər. ADPU-nun Quba filialının direktor müavini Aysel Şeydayevanın moderatorluğu ilə baş tutan konfrans Lütfi Zadənin elmi fəaliyyətinin əsaslandırılması, qeyri-məntiq nəzəriyyəsi haqqında məlumatların verilməsi ilə başlanıb.

Sonra ADPU-nun Quba filialının direktoru dosent Yusif Alıyev “Müasir dövrün informasiya cəmiyyətində nəyi dəyişməliyik? - *https://adpuquba.edu.az* saytında yeniliklər” mövzusunda çıxış edib. Bildirib ki, informasiya cəmiyyəti sferasında tətbiq edilən əksər texnolgiyalar məhz Lütfi Zadənin adı ilə bağlıdır. Onun qeyri-səlis çoxluqlar nəzəriyyəsi bütün sferalarda istifadə olunur. Direktor informasiya sızmalarına, dezinformasiyaya qarşı mütərəqqi mübarizədən söz açıb. Qeyd edib ki, internet imkanları medianın həyatımıza daha sürətli şəkildə daxil olmasını zərurətə çevirib. Y.Alıyev vurğulayıb ki, informasiya siyasətində Prezident İlham Əliyevin apardığı strategiyanı rəhbər tutaraq müstəqil ölkənin vətəndaşı olaraq yad ünsürlərin dezinformasiyalarını yaxına buraxmamalıyıq. Direktor beyin zəhərlənməsindən, medianın buna təsirindən söz açıb. Bildirilib ki, yaxın vaxtlarda filialın “Telegram” kanalı və “Twitter” səhifəsi fəaliyyətə başlayacaq. Həmçinin *https://adpuquba.edu.az/* saytının təqdimatının da yüksək səviyyədə keçirilməsi nəzərdə tutulub. Son 2 ildə magistraturaya qəbul olunan tələbələrin statistikasının son 5 illə müqayisədə xeyli yüksək olmasını vurğulayan Y.Alıyev statistik göstəriciləri konfrans iştirakçılarına təqdim edib. Filialın bir sıra əcnəbi ali təhsil müəssisələri ilə beynəlxalq əməkdaşlıqlarının genişləndirilməsi istiqamətində görülən işləri də sadalanıb. Yaxın gələcəkdə filialın Türkiyənin 4 ali təhsil müəssisəsi ilə böyük layihə əməkdaşlığı gözlənilir. Növbəti illərdə filialla Qars Universiteti arasında ikili diplom proqramının həyata keçirilməsi istiqamətində də müzakirələr aparılır. Həmçinin Yaponiyanın Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində tədqiqat laboratoriyasının açılması, Yaponiya ali təhsil təcrübəsinin öyrənilməsi planlaşdırılır.

Daha sonra çıxış edən millət vəkili, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, professor Hikmət Babaoğlu Azərbaycanda medianın inkişafına dövlət dəstəyindən söz açıb. Qeyd edib ki, Quba filialının belə aktual və məzmunlu tədbir keçirməsini alqışlayır və yüksək qiymətləndirir. Çünki milli informasiya cəmiyyəti qlobal çağırışlar astanasındadır və bu çağırışlar bizim fəaliyyətimiz üçün cazibə rolunu oynamaqdadır. Bu gün elm informasiyanın ali formasıdır. O, bunu fiziki əsaslarla sübuta yetirib. Millət vəkili sosiologiyanın cəmiyyəti təsnifatlaşdırma meyarlarından söz açıb.

O, postmodernist cəmiyyətin əsas xüsusiyyətlərini sadalayıb və hazırda informasiya cəmiyyətində yaşadığımızı qeyd edib. ADPU Quba filialının uğurlu fəaliyyətini daim mətbuat vasitəsilə izlədiyini vurğulayan H.Babaoğlu əlavə edib ki, regionda belə müasir tələblərə cavab verən ali təhsil müəssisəsinin olması çox təqdirəlayiqdir. Millət vəkili yüksək təhsil göstəriciləri və yenilikləri nəzərə alaraq filialla əməkdaşlığa hər zaman hazır olduğunu söyləyib.

“Məktəb guşəsi” jurnalının baş redaktoru Məzahir Məmmədli çıxışını “Onlayn, yoxsa əyani informasiya cəmiyyəti - hansı daha tez maarifləndirir?” sualı üzərində qurub. M.Məmmədli informasiya cəmiyyətinin böyük anlayış olduğunu diqqətə çatdıraraq mövzu ilə bağlı fikirlərini bölüşüb.

“Azərbaycan müəllimi” qəzetinin şöbə redaktoru Oruc Mustafayev “Elmin inkişafında qəzetlərin rolu” mövzusunda məruzə edib. Bildirib ki, bu gün Azərbaycanın ali təhsil sisteminin yalnız böyük şəhərlərlə məhdudlaşmaması sevindirici amildir. Onun sözlərinə görə, pandemiya həm universitetlər, həm də informasiya cəmiyyəti üçün gözlənilməz olub. Məruzədə ali təhsil müəssisələrinin informasiya cəmiyyətinin yaratdığı şərait fonunda təkmilləşdiyi vurğulanıb. O. Mustafayev sonda Lütfi Zadə irsinə müraciət edərək onun İKT-nin insan həyatında yenilikçi rolu ilə bağlı çıxışlarından sitat gətirib. Bildirib ki, böyük alimin hələ 50 il öncə texnologiyaların gələcəyi ilə bağlı söylədiklərini məhz indi informasiya cəmiyyəti fonunda müşahidə edirik.

Sonra filialın Ədəbiyyat və dillər kafedrasının baş müəllimləri Rahib Sədullayev, Eyvaz Şeydayev çıxış ediblər.

Konfrans ADPU Quba filialı barədə tanıtım çarxının səsləndirilməsi ilə başa çatıb.